# Dərbənddə Azərbaycan və Dağıstan alimlərinin görüşü



**Bu günlərdə Dərbənd Tarixi-Memarlıq Bədii Muzey Qoruğunda Azərbaycan və Dağıstan alimlərinin görüşü keçirilmişdir. Görüşdə Azərbaycan Milli Elmlər Akademiyası, "Azər-İlmə" Xalçaçılıq Mərkəzi və Rusiya Elmlər Akademiyasının Dağıstan Elmi Mərkəzinin Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutunun birgə həyata keçirdiyi "Dərbənd xalçaçılığı" fundamental elmi layihəsinin nəticələri müzakirə edilmişdir.**

Layihənin rəhbəri və təşəbbüskarı "Azər-İlmə" Xalçaçılıq Mərkəzinin direktoru Əməkdar İncəsənət xadimi, tarix üzrə fəlsəfə doktoru, professor Vidadi Muradov çıxış edərək tədbir iştirakçılarını layihənin prinsipləri, gedişatı, aparılan ekspedisiya—çöl təqiqatları haqqında məlumatlandırmışdır. V.Muradov qeyd etmişdir ki, layihənin nəticələri "Derbentskoe Kovrotkaçestvo: soistoriya kultur" ("Dərbənd xalçaçılığı: mədəniyyətlərin müştərək tarixi") kitabında öz əksini tapmışdır. Kitaba Dərbəndin xalçaçılıq ənənələrindən–xalçalarından, onların bədii-texnoloji xüsusiyyətlərindən, xalçaçılarından, boyaqçılarından, tacirlərindən bəhs edən materiallarla yanaşı, bu qədim şəhərin tarixinə, etno-mədəni mühitinə, burada inkişaf etmiş ayrı-ayrı sənət sahələrinə dair maraqlı oçerklər, arxiv materialları, o cümlədən rəngarəng fotoşəkillər də daxil edilmişdir. Layihə çərçivəsində Rusiyanın Şərq xalqlarının incəsənəti Dövlət Muzeyi, Dövlət Tarix Muzeyi, Etnoqrafiya Muzeyi, Antropologiya və Etnoqrafiya Muzeyində, Dövlət Ermitajında və s. kimi məşhur muzeylərində qorunan Dərbənd bölgəsində toxunan qədim xalçalar da tədqiqata cəlb olunmuşdur.

Dağıstan Elmi Mərkəzinin Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutunun direktoru, tarix elmləri namizədi M. Musayev, tarix elmləri doktorları—Camal Mustafayev, Məhəmmədxan Məhəmmədxanov, Nazim Məhəmmədov tarix elmləri namizədləri—Emil Kərimov, Qoşqar Qoşqarlı, Şərafəddin Məhərrəmov, filologiya elmləri doktoru Tehran Alışanlı, Dərbənd Tarixi-Memarlıq Bədii Muzey Qoruğunun direktoru Əli İbrahimov və digərləri öz çıxışlarında layihənin aktuallığını qeyd edərək, onu Azərbaycan və Dağıstan alimlərinin ilk birgə nailiyyəti kimi yüksək dəyərləndirdilər. Görüşdə layihənin nəticələrinin təbliği, beynəlxalq miqyasda işıqlandırılmasına dair məsələlər, Dərbənd şəhərinin iqtisadi, ticari, mədəni, sosial tarixinin öyrənilməsində Azərbaycan və Dağıstan alimlərinin birgə fəaliyyət perspektivləri müzakirə edildi, həmçinin "Dərbənd xalçaçılığı: mədəniyyətlərin müştərək tarixi" kitabının siqnal buraxılışına dair rəy və təkliflər səsləndirildi.

Tədbirdə Dərbənd şəhər ictimaiyyətinin nümayəndələri, ziyalılar, KİV nümayəndələri iştirak etmişlər.

**Müşfiq MİRZƏ,**
**"Respublika".**